

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 17 (21.169)

*27 yanvar 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2015-ci il martın 28-də Azərbaycan ədəbiyyatının və elminin inkişafında böyük xidmətləri olan Əziz Şərifin (Əziz Qurbanəli oğlu Şərifzadə) anadan olmasının 120 illiyi tamam olur.

1895-ci ildə Naxçıvan şəhərində anadan olan Əziz Şərif ilk təhsilini görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin "Tərbiyə" məktəbində, sonra isə Tiflis gimnaziyasında almışdır. 1943-cü ildə M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirən Əziz Şərif 1950-1961-ci illərdə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda və Dünya Ədəbiyyatı İnstitutunda işləmiş, 1962-1988-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professoru, 1960-1964-cü illərdə isə həmin universitetdə kafedra müdiri olmuşdur.

Tiflisdə oxuduğu dövrlərdə Cəlil Məmmədquluzadə və digər "Molla Nəsrəddin"çilərlə tanışlığı Əziz Şərifin elmi və ədəbi fəaliyyətində mühüm rol oynamışdır. Təsadüfi deyil ki, o, ilk ədəbi fəaliyyətinə də 1906-cı ildə "Molla Nəsrəddin" jurnalında başlamış və burada "Naxçıvandan məktublar" məqaləsini dərc etdirmişdir.

Maraqlı həyat və zəngin yaradıcılıq yolu keçən Əziz Şərif ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində səmərəli fəaliyyət göstərmiş, XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının az tədqiq olunan ədəbi şəxsiyyətləri haqqında qiymətli əsərlər yazmışdır. Çoxlu məqalələrin, elmi əsərlərin, tənqidi-bioqrafik oçerk və monoqrafiyaların müəllifi olan Əziz Şərifin elmi fəaliyyəti və axtarışları nəticəsində Azərbaycanın görkəmli yazıçılarının bir sıra əsərləri, XIX-XX əsrlərə dair çoxsaylı məktublar, sənəd və fotoşəkillər, qiymətli əlyazma materialları aşkarlanaraq elmi və ədəbi mühitə təqdim edilmişdir.

Müasir Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı olan Əziz Şərif bədii tərcümə və publisistika sahəsində də səmərəli fəaliyyət göstərmiş, Azərbaycan klassik yazıçı və mütəfəkkirlərinin əsərlərini rus dilinə tərcümə etmişdir.

XX əsrdə elmi-ədəbi fikrin inkişafında böyük xidmətləri olan Əziz Şərif "Molla Nəsrəddin" məktəbindən aldığı ideyaları ədəbiyyatda, elmdə və ictimai mühitdə gerçəkləşdirməklə Azərbaycan ədəbiyyatşünaslığının möhkəm bünövrəsini yaratmışdır. O, xalqımızın milli-mədəni irsinin fədakar təbliğatçısı olmuş, sağlığında pedaqoq və elm xadimi kimi şöhrət qazanmışdır.

Xalqımızın böyük ziyalısı Əziz Şərifin Azərbaycan ədəbiyyatının və elminin inkişafındakı xidmətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilsin.

2."Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 26 yanvar 2015-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimat mərasimi keçirilmişdir

Yanvarın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" və "Hərbi xidmətlərə görə" medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının, 2013-2014-cü tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərinə mükafatların təqdimat mərasimi keçirilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları dövlətimizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik edərək demişdir: "Ölkəmizdə bütün sahələr inkişaf etdirilir, müxtəlif sahələrdə çalışan və fəaliyyətləri ilə fərqlənən insanların əməyi dövlətimiz tərəfindən qiymətləndirilir. O insanların əməyi qiymətləndirilir ki, onlar öz fəaliyyətləri ilə digərlərindən seçilir, ölkəmizin inkişafı, tərəqqisi yolunda daha çox çalışırlar. Hər bir insanda vəzifə borcu ilə yanaşı, onun Vətən qarşısında, cəmiyyət qarşısında daşıdığı borc hissi də olmalıdır. Vəzifələrini layiqincə yerinə yetirən, fədakarlıq göstərən belə insanlar daim öz fəaliyyətləri ilə nümunə göstərirlər. Çünki bu insanlar vəzifə borclarını yerinə yetirməklə yanaşı, həm də ölkəmizin inkişafına töhfə verirlər. Bu gün təltif olunanlar da çalışdıqları sahələrdə nümunəvi xidmətləri ilə seçilən insanlardır".

Ali Məclisin Sədri demişdir: "İnsan əməyi o ölkələrdə qiymətləndirilir ki, həmin ölkədə inkişaf və sabitlik olsun. Ölkəmizdəki mövcud inkişaf və sabitlik insanların əməyinin layiqincə qiymətləndirilməsinə, onların dövlət mükafatları ilə təltif olunmasına imkan verir. Bu gün təltif olunanlar da əməklərinə verilən yüksək qiymətin müqabilində daha səylə çalışacaq, bundan sonra da ölkəmizin inkişafında yaxından iştirak edəcəklər".

Ali Məclisin Sədri bir daha təltif olunanları təbrik etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan Niyaməddin Əliyev, Şahin Abdullayev, Mehman Əliyev, Nəzakət Gülməmmədova, Kəmalə İbrahimova, Akifə Quliyeva, Məryəm Bayramova və Abdulla Tahirli minnətdarlıq edərək demişlər ki, ölkəmizin, eləcə də muxtar respublikanın bugünkü inkişafı naminə xidmət göstərmək ikiqat qürur və şərəfdir. Qədim Naxçıvanın müasir inkişafı hər bir sakinin qurub-yaratmaq əzmini artırır. Bu gün bir qrup insanın təltif olunması onların əməyinə verilən qiymətin daha bir ifadəsidir. Təltif olunanlar bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi naminə səylə çalışacaqlarını bildirmişlər.

Daha sonra Ali Məclisin Sədri 2013-2014-cü tədris ilində "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuş Naxçıvan şəhər 9 nömrəli, Babək qəsəbə və Şahbuz şəhər 2 nömrəli tam orta məktəblərinə, eləcə də "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuş 5 müəllimə mükafatları təqdim etmişdir.

Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin direktoru Ülkər Məmmədova, Babək qəsəbə tam orta məktəbinin direktoru Əli Hacıyev, Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin direktoru Əvəz Həsənov, "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərindən Rəxşəndə Rüstəmova, Sədaqət Cəfərova, Həyat Həşimova, Ədalət Əhmədov və Məhəddin Kazımov mükafata layiq görülmələrini təmsil etdikləri kollektivin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirmiş, bundan sonra da savadlı, vətənpərvər gənclərin yetişdirilməsi yolunda bilik və bacarıqlarını əsirgəməyəcəklərinə söz vermişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərindəki muzeylər ziyarət edilir

*Qədim Naxçıvan diyarının tarixi, zəngin mədəniyyəti ilə tanışlıq məqsədilə muxtar respublikada fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının Naxçıvan şəhərindəki muzeylərə ekskursiyaları davam etdirilir.*

Yanvarın 24-də "Muzey günləri" çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurası və "Şərq qapısı" qəzeti redaksiyasının əməkdaşları Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində olublar.



Məlumat verilib ki, muzeydə 4500-dən çox eksponat vardır. Fəaliyyət göstərdiyi dövrdə muzeyin 250 mindən çox ziyarətçisi olub. Vurğulanıb ki, muzeydəki eksponatların hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Azərbaycanın müasir dövlətçilik tarixinin və ümummilli liderimizin siyasi irsinin tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət ediblər.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisində tarixin bütün dövrlərinə aid zəngin maddəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb.

Yanvarın 24-də Dövlət Statistika Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları Açıq Səma Altında Muzeydə, Dövlət Baş Sığorta Agentliyinin, Dövlət Energetika Agentliyinin, Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri Ədəbiyyat Muzeyində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində, Dövlət Sosial Müdafiə Fondunun, Mərkəzi Seçki Komissiyasının və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, "Naxçıvanqala" İstehsalat Birliyinin və Satınalmalar üzrə Dövlət Agentliyinin kollektivləri isə Naxçıvan Dövlət Tarix Muzeyində olublar.

**Xəbərlər şöbəsi**



Müasirləşən kəndlərimiz

# Yeni ilin yeniləşən yaşayış məntəqəsi: *Püsyan*

## *Və ya insan amilinə dövlət qayğısının ifadəsi*

***Hələ ötən əsrin 90-cı illərində muxtar respublikada ilk özəl nümunəvi təsərrüfat Püsyanda yaradılıb, kənddə yeraltı suvarma şəbəkəsi qurulub. Kənddə güclü təsərrüfatçılıq ənənələri formalaşdırılıb, hər il tonlarla kənd təsərrüfatı məhsulları istehsal edilib. Ancaq belə bir imkanlı yaşayış məntəqəsində fəaliyyət göstərən təşkilatlar uyğunlaşdırılmış binalarda yerləşdirilib. Yəni Püsyanda dövlət tərəfindən müasir tələblərə cavab verən binalar inşa edilməyib. Mövcud binalar isə dövrün tələblərinə cavab verməyib.***

Ötən ildən yenidən qurulmasına başlanılan, yanvar ayının 6-da istifadəyə verilən məktəb binası, həmçinin müasir standartlar səviyyəsində inşa olunan həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, kompleks quruculuq tədbirləri çərçivəsində Naxçıvan-Sədərək magistral avtomobil yolundan Püsyan kəndinədək, eləcə də 5,4 kilometr kənddaxili yola asfalt örtük salınması, 10 kilometr məsafədə məhəllələrarası yolların təmir olunması, yeni tikililərə 360 metr uzunluğunda qaz xəttinin, 940 metr məsafədə beton kanalın, kənddaxili 400 metr fiberoptik, ümumi uzunluğu 14,7 kilometr olan yerüstü və 2,5 kilometr olan yeraltı rabitə, 1,5 kilometr elektrik xətlərinin çəkilməsi, 478 metr suvarma kanalının inşa olunması püsyanlıların üzləşdikləri problemlərə son qoyub. Bütün bunlar barədə kənd adamlarının fikirlərini öyrənmək məqsədilə, ilk olaraq, məktəb binasına üz tutduq. Kəndin ziyalı potensialının cəmləşdiyi 4 mərtəbəli bu təhsil ocağı 792 şagird yerlikdir. Hazırda burada 310 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 37 müəllim məşğul olur. Təhsil ocağının yeni binasında 46 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, 38 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuş 2 kompüter otağı, 2 müəllimlər otağı, 4 elektron lövhəli sinif, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.

Məktəbin müəllimi Fəranə Bağırova bildirdi ki, Ali Məclis Sədrinin açılış mərasimində dediyi sözlər pedaqoji kollektivin hər bir üzvünün fəaliyyət proqramına çevrilib: ***"Təhsilə göstərilən qayğı ölkənin gələcəyinə göstərilən qayğı, təhsilə qoyulan sərmayə isə ölkənin gələcəyinə qoyulan sərmayədir. Bu amil hər bir ölkənin gələcək inkişaf yolunun təhsildən keçdiyini bir daha təsdiq edir. Püsyan kənd tam orta məktəbi üçün yeni binanın istifadəyə verilməsi, yaradılan müasir tədris şəraiti də ölkəmizdə təhsilin inkişafına göstərilən qayğının daha bir ifadəsidir. Məktəbdə elektron lövhəli siniflər, internetə qoşulmuş kompüter otaqları, laboratoriyalar, hərbi kabinə, idman qurğuları və digər müasir tədris avadanlıqları kollektivin istifadəsinə verilmişdir. Bütün bunlar da məktəbdə təhsilli və sağlam gənc nəslin yetişdirilməsinə imkan verəcəkdir. Gənclərə yaxşı təhsil vermək, onları gələcəyə hazırlamaq, hər bir şagirdə bacarığına uyğun olaraq peşə seçimində köməklik göstərmək müəllimlərin qarşısında duran əsas vəzifələrdir".***

Bu məqamda oxucuların nəzərinə onu da çatdırmağı vacib sayırıq ki, bu gün Amerika Birləşmiş Ştatlarında çalışan tibb elmləri doktoru Gümrah Əliyev, Azərbaycan filologiya elminə öz töhfələrini verən professorlar Kamil Əliyev, Cəlal Qasımov, eləcə də tibb üzrə fəlsəfə doktoru Alı Əliyev, bir neçə kitab müəllifləri, Azərbaycan Yazıçılar Birliyinin üzvləri, şair Asim Yadigar, yazıçı Əbülfəz Əsgərov, şair Allahverdi Aqil və başqaları orta təhsillərini Püsyan kənd tam orta məktəbində alıblar. Məktəbin məzunu Fərhad Mirzəyev Qarabağ döyüşlərində şəhidlik zirvəsinə ucalıb. Bu gün püsyanlılar haqlı olaraq onlarla fəxr edirlər.

Təhsil ocağının belə yetirmələri haqqında qürurla danışan məktəbin direktoru Ülkər Nağıyeva Ali Məclis Sədrinin kollektiv qarşısında qoyduğu vəzifələri xatırlatdı: ***"Püsyan kənd tam orta məktəbinin nailiyyətləri muxtar respublikanın ümumtəhsil məktəblərinin orta göstəricilərindən aşağıdır. Ona görə də müəllimlər yaradılan şəraitdən səmərəli istifadə etməli, məktəbin nailiyyətləri artırılmalıdır. Bu işdə məktəb kollektivi ilə yanaşı, kənd ictimaiyyətinin nümayəndələri, xüsusilə ailələr yaxından iştirak etməli, məktəb-ailə münasibətləri düzgün qurulmalı, təhsilli və vətənpərvər gənclər yetişdirilməlidir".*** Bu vəzifələrin yerinə yetiriləcəyinə əminliyini bildirən Ülkər Nağıyeva dedi:

– Püsyan kəndində bir gündə belə böyük həcmdə sosial obyektlərin istifadəyə verilməsi münasibətilə dərin minnətdarlığımızı bildirir, üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyimizə söz veririk. Məktəbdə yaradılan şərait çox yüksək səviyyədədir. Bu şəraitdən səmərəli istifadə etməklə gözəçarpan nailiyyətlərə imza atmaq heç də çətin deyil. Kollektivin də qarşısında məhz bu vəzifə durur: ölkəmiz üçün layiqli vətəndaşlar tərbiyə etmək. Elə vətəndaşlar ki, dövlətçiliyimizi, müstəqilliyimizi ən böyük, ən qiymətli sərvət sayaraq onların keşiyində durmağı bacarsınlar.

"Son illər Naxçıvanda sayı artan səhiyyə obyektləri insanların sağlamlığına qayğının ifadəsi kimi diqqəti çəkir. Bu obyektlərdə ilkin müayinə və müalicə üçün hərtərəfli şərait yaradılır, həmin səhiyyə ocaqlarının maddi-texniki bazasının yaxşılaşdırılması diqqətdə saxlanılır", – bu sözləri Püsyan kənd həkim ambulatoriyasının baş həkimi Aydın Əliyev deyir və ambulatoriya haqqında məlumat verir:

– Püsyan kənd həkim ambulatoriyası xəstəxanatiplidir. İstifadəmizə 13 otaq verilib. Yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstəririk. Əhali arasında maarifləndirici tədbirlərin aparılmasını diqqət mərkəzində saxlayır, müxtəlif kütləvi tibbi prosedurların keçirilməsinə çalışırıq. Kollektivimiz unutmur ki, bizə ən şərəfli bir vəzifə tapşırılıb. Və bu vəzifəni yerinə yetirmək üçün müasir iş şəraiti ilə təmin olunmuşuq. Bu da ambulatoriyada çalışanların məsuliyyət hissini daha da artırıb.

Elə buradaca kənd ağsaqqalı Zahid Süleymanovla görüşürük. O, Püsyanda belə nümunəvi səhiyyə müəssisəsinin yaradılmasından məmnunluğunu bildirir, bunu kənd adamlarına göstərilən qayğı kimi dəyərləndirir. Vurğulayır ki, insana diqqət və qayğı olan yerdə onun qurub-yaratmaq, yaşamaq əzmi də yüksəlir. Deyir ki, püsyanlılar zəhmətkeş insanlardır. Necə deyərlər, daşdan çörək çıxarmağı bacarırlar.

El ağsaqqalı bir qədər dayanır, üzünə təbəssüm qonur. Sözünə davam edir:

– Heç daşdan çörək çıxarmağa ehtiyac yoxdur. Püsyanın məhsuldar torpaq sahələri var. Kənd adamları bunu bilir, gün-güzəranlarını daha da yaxşılaşdırmaq üçün dövlətimizin yaratdığı şəraitdən səmərəli istifadə edirlər.

Yazımızın əvvəlində bildirdik ki, sovet dönəmində kənddəki qurumlar uğunlaşdırılmış binalarda fəaliyyət göstəriblər. Artıq Püsyanda ikimərtəbəli kənd mərkəzi istifadəyə verilib. Burada rabitə evi, kitabxana, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi fəaliyyət göstərir.

Püsyanlılara sevinc bəxş edən yeni obyektlərdən biri də xidmət mərkəzidir. Xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları olmaqla, 3 mağaza fəaliyyət göstərir. Xidmət mərkəzinin istifadəyə verilməsi ilə sakinlərin lazımi ərzaq və sənaye mallarına olan tələbatları öz kəndlərində ödənilir.

Xidmət mərkəzində kənd sakinlərindən Firudin Quliyev, Ceyhun Zeynalov, İmanverdi Quliyevlə həmsöhbət oluram. Hər biri razılıqla danışır, kənddə aparılan kompleks quruculuq işlərinə görə minnətdarlıq edir.

***Beləcə, muxtar respublikamızda yeniləşən yaşayış məntəqələri sırasına Püsyan kəndi də əlavə olundu. Diyarımızın davamlı inkişafı, burada gündən-günə yüksələn həyat tərzi isə qədəm qoyduğumuz 2015-ci ildə belə ünvanların sayının daha da artacağını göstərir.***

**Muxtar MƏMMƏDOV**

# Məşğulluğun artırılması muxtar respublikada aparılan sosial siyasətin tərkib hissəsidir

***İnkişaf etmiş dünya ölkələrində davamlı inkişafın təmin edilməsində əsas vacib sahələrdən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. Məşğulluq məsələləri bazar iqtisadiyyatının əsas prinsiplərindəndir. Bu sahənin inkişaf etdirilməsi iqtisadi fəallığın artırılması, eyni zamanda əhalinin daim artan ehtiyaclarının ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.***

Ancaq son illərdə dünyanın iqtisadi sferasında baş verən dəyişikliklər bir daha onu göstərir ki, hətta ən inkişaf etmiş ölkələr belə, işsizlik problemlərindən sığortalanmayıb. Buna görə də düzgün məşğulluq siyasətinin həyata keçirilməsi nəticəsində yoxsulluq və işsizlik səviyyəsinin minimuma endirilməsi bu gün istənilən ölkə üçün aktual məsələlərdən hesab olunur. Məhz bu prizmadan baxdıqda müasir iqtisadi şəraitdə dövlətimizin makroiqtisadi siyasətinin əsas məqsədlərindən birinin əmək qabiliyyətli əhalinin məşğulluğunu yüksək səviyyədə təmin etməkdən ibarət olduğu bir daha görünür.

Qeyd etmək lazımdır ki, ölkəmizdə məşğulluq siyasəti ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi inkişaf strategiyasının ən mühüm tərkib hissələrindən biridir. 2001-ci il 2 iyul tarixli "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu bu istiqamətdə dövlət siyasətini müəyyən etmişdir. Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 oktyabr 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 2007-ci il 15 may tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" və 2011-ci il 15 noyabr tarixli Sərəncamla öz təsdiqini tapmış "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2011-2015-ci illər)" ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsinə real imkanlar yaratmışdır. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci və 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının, 2008-ci il 15 sentyabr tarixli Sərəncamla təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın icrası nəticəsində əhalinin sosial rifahının gücləndirilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ümumilikdə, ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş və bu tədbirlər hazırda da davam etdirilir.

Sosial-iqtisadi inkişafın getdikcə artan və keyfiyyətcə yeni mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında da formalaşdırılmış möhkəm iqtisadi əsaslar fonunda əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsi, vətəndaşların etibarlı sosial müdafiəsinin təşkili mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi və dərinləşməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılmasına səbəb olmuş, bu da sosial və iqtisadi problemlərin həllində özünü göstərmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlər yeni uğurların əldə olunmasına imkanlar açaraq yoxsulluğun azaldılmasına, işgüzar fəallığın yüksəldilməsinə, habelə məşğulluq tədbirlərinin həllinə mühüm təsir göstərmişdir.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən və muxtar respublikanın sosial-iqtisadi inkişaf istiqamətlərini özündə əks etdirən dövlət proqramlarından irəli gələn vəzifələrin uğurlu icrası əldə edilən nailiyyətlərin əsasını təşkil etmişdir. Təkcə ötən 2014-cü ildə muxtar respublikada sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlər bir daha makroiqtisadi dinamikanın yüksək səviyyədə saxlanıldığını təsdiq edir. Belə ki, 2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi 2013-cü illə müqayisədə 1,3 faiz artaraq 2 milyard 391 milyon manat olmuşdur. Onun hər bir nəfərə düşən həcmi 5465,2 manat təşkil etmişdir. Maddi istehsal sektorunun Ümumi Daxili Məhsulda payının 63 faiz olması isə sabit iqtisadi artımın nəticəsidir. Son illərdə muxtar respublikada məqsədli investisiya qoyuluşu, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması maddi istehsalın xüsusi çəkisinin yüksəlməsinə səbəb olmuşdur. Muxtar respublikada daxili istehsal potensialından səmərəli istifadənin nəticəsidir ki, 107-si ərzaq və 229-u qeyri-ərzaq olmaqla, 336 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. 2014-cü ildə muxtar respublika üzrə Ümumi Daxili Məhsulun həcmində özəl bölmənin xüsusi çəkisi 87 faizə çatmışdır. Əldə olunan nəticələr, təbii ki, əhalinin məşğulluğunun artırılmasına da öz təsirini göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər əmək bazarının tənzimlənməsinə və yeni iş yerlərinin açılmasına şərait yaratmış, təkcə 2014-cü ildə 3805 yeni iş yeri açılmışdır ki, bunun da 97,5 faizi və ya 3709-u daimi iş yerləridir. Müqayisə üçün qeyd edək ki, 2013-cü ildə muxtar respublikada bank və kredit təşkilatları tərəfindən sahibkarlara 49 milyon 765 min manatdan çox kreditlərin verilməsi nəticəsində 2260 yeni iş yeri açılmışdır ki, bunun da 2092-si daimi iş yerləri olmuşdur.

Hamımıza məlumdur ki, muxtar respublikada məşğulluq məsələlərinin həll edilməsində təşkil olunan əmək yarmarkaları mühüm rol oynayır. Belə ki, vaxtaşırı olaraq keçirilən əmək yarmarkalarına muxtar respublikada fəaliyyət göstərən idarə, təşkilat və qurumlardan vakant iş yerləri çıxarılır və istənilən işaxtaran vətəndaş yarmarkaya müraciət edib öz ixtisasına uyğun işlə maraqlana və işə göndəriş əldə edə bilər. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 2014-cü ildə Naxçıvan şəhərində və rayon mərkəzlərində 4 dəfə əmək yarmarkaları təşkil edilmişdir. Əmək yarmarkalarına, ümumilikdə, 263 müəssisə və təşkilat tərəfindən 2030 boş iş yeri çıxarılmışdır. Keçirilən əmək yarmarkalarında 943 nəfər peşə və ixtisasına uyğun işlə təmin edilmiş, 9 nəfər peşə hazırlığına, 30 nəfər isə ictimai işlərə cəlb olunmuşdur. Muxtar respublikada təhsil və səhiyyə işçiləri üçün təşkil olunan əmək yarmarkalarında isə 93 nəfər pedaqoji işlə, 11 nəfər isə səhiyyə sahəsində münasib işlə təmin edilmişdir.

Artıq 2015-ci ilə qədəm qoymuşuq. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın, "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası məşğulluq məsələlərinin həllinə öz töhfəsini verəcək.

**Səbuhi HƏSƏNOV**

*Naxçıvanın tarixində "Muxtariyyət ili" kimi yadda qalacaq 2014-cü ili uğurla başa vurduq. Ötən il muxtar respublikada gedən yüksək inkişaf özünü Ümumi Daxili Məhsul istehsalında, sənaye, kənd təsərrüfatı məhsullarının, əsas kapitala yönəldilən investisiyaların ümumi həcminin artmasında, biznesin inkişafına dövlət dəstəyinin göstərilməsində və digər makroiqtisadi göstəricilərdə qabarıq göstərdi. Bütün bu nailiyyətlərin əldə olunmasında bank sektoru da fəal iştirak edib. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədovla ötən ilə nəzər saldıq. İdarə sədri bankların 2014-cü ildəki fəaliyyəti, ötən il əldə olunan nailiyyətlər, gələcək planlar barədə ətraflı məlumat verdi.*

Aktual söhbət

# Muxtar respublikada fəaliyyət göstərən bank qurumları 2014-cü ili uğurla başa vurub

## *Bu il bank resursları, əsasən, kənd təsərrüfatı və sənayenin inkişafına yönəldiləcək*

***– Səbuhi müəllim, istərdik, ilk olaraq, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu barədə məlumat verəsiniz.***

– 1 yanvar 2015-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 100 milyon 667 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 15 milyon 499 min manat, uzunmüddətli kredit qoyuluşu isə 85 milyon 168 min manat təşkil edir. Kredit qoyuluşu keçən ilin müvafiq dövrü ilə müqayisədə 16 milyon 380 min manat artıb.

Mərkəzi Bankın kreditləşmədə əsas məqsədi aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarın müdafiəsi, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Kredit qoyuluşunun 32,5 faizi kənd təsərrüfatına, 32,9 faizi sənayeyə, 8,9 faizi tikinti-inşaat sektoruna, 9 faizi ticarət-xidmət sahələrinin inkişafına yönəldilib. Eyni zamanda muxtar respublika əhalisinə verilmiş 13 milyon 862 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 3 milyon 731 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların rifahının yaxşılaşdırılması ilə bərabər, real sektor da dəstəklənib.

Kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayıb.

***– Konkret olaraq, ötən il nə qədər kredit verilib?***

– Bank və kredit təşkilatları tərəfindən 2014-cü il ərzində 54 milyon 457 min manat kredit verilib ki, bunun da 21 milyon 362 min manatı qısamüddətli, 33 milyon 95 min manatı isə uzunmüddətli kreditlərdir. Verilmiş kreditin 17 milyon 956 min manatı kənd təsərrüfatı, 5 milyon 674 min manatı sənaye, 7 milyon 180 min manatı tikinti, 4 milyon 702 min manatı kommersiya sahələrinə, 2 milyon 53 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 16 milyon 892 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib.

Ötən il ərzində verilmiş kreditlərin 33 faizini – yəni 17 milyon 956 min manatını kənd təsərrüfatı kreditləri təşkil edir. Kənd təsərrüfatı kreditləri aqrar sahənin inkişafında, ənənəvi istehsal və kiçik emal sahələrinin dirçəlməsində əhəmiyyətli rol oynayır.

Bu kreditlər, əsasən, prioritet sayılan və muxtar respublikada qəbul edilmiş dövlət proqramlarının icrasına uyğun olaraq, istehsal proseslərinin təmin edilməsi üçün çoxsaylı komponentlərə – toxum və əkin materiallarının, kiçik emal avadanlıqlarının alınmasına, digər aqrotexniki tədbirlərin aparılmasına, heyvandarlığın inkişafına verilib.

Bu gün biznesin inkişafında kreditlərin rolu əvəzedilməzdir. Muxtar respublikada iqtisadiyyatın yenidən qurulduğu bir vaxtda yerli istehsal müəssisələrinin istehsal etdiyi malların xüsusi çəkisinin artması, kənd təsərrüfatı ilə bərabər, sənayenin inkişafı prosesi gedir. Banklar həm yeni biznesin yaradılmasındakı maliyyə probleminin həllində, həm də yeni texnologiyalar tətbiq etmək və fəaliyyətini genişləndirmək istəyən müəssisələrin və sahibkarların əsas və dövriyyə fondlarının maliyyələşdirilməsində əsas maliyyə vasitəçisi kimi iştirak edir.

***– Səbuhi müəllim, Mərkəzi Bankın açıqladığı məlumata görə, muxtar respublikada kreditlərin orta illik faiz dərəcəsi ölkəmizin digər regionları ilə müqayisədə ən aşağı göstəricidir.***

– Muxtar respublikada kreditlərin orta illik faiz dərəcəsi 13,5 faiz təşkil edir. Hansı ki bu göstərici Dağlıq Şirvan zonasında 23,5, Gəncə-Qazax zonasında 21,7, Şəki-Zaqatala zonasında 20,8, Quba-Xaçmaz zonasında 20,2, Yuxarı Qarabağda 20,8, Abşeron zonasında 19,2 faiz təşkil edir. Rəqəmlərdən göründüyü kimi, muxtar respublikada kreditlərin orta faiz dərəcəsi digər iqtisadi rayonlardan 8-10 faiz aşağıdır.

***– Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının neçəsi işlək hesablardır?***

– Əvvəlcə onu qeyd edim ki, banklar tərəfindən 2014-cü il ərzində 2244 hüquqi, 36013 fiziki şəxs olmaqla, 38257 müştəriyə xidmət göstərilib. Xidmət olunan hesabların 35020-si işlək hesab olub ki, onların 1320-si hüquqi, 33700-ü fiziki şəxsdir.

2014-cü il ərzində 107 hüquqi, 17867 fiziki şəxs olmaqla, 17974 müştəriyə yeni bank hesabı açılıb. Açılmış bank hesablarının 17883-ü fəaliyyət göstərir ki, onların 107-si hüquqi, 17776-sı fiziki şəxsdir.

Açılmış bank hesablarının sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 9525 ədəd artmaqla, onlardan işləyənlərin sayı 9488 ədəd olub.

***– 2014-cü il ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə nağd pul dövriyyəyə buraxılıbmı?***

– Bəli, ötən il 548 milyon 136 min manat nağd pul dövriyyəyə buraxılıb ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 117 milyon 630 min manat azdır. Bu isə onu göstərir ki, muxtar respublikada fəaliyyət göstərən bankların kassasına daxil olan nağd pulun həcmi artıb, xidmət olunan müəssisə və təşkilatların nağd pula olan tələbatı isə azalıb.

***– Son illər qarşıya qoyulan mühüm vəzifələrdən biri də nağdsız hesablaşmaların həcminin artırılması ilə bağlıdır. Muxtar respublikada bu sahədə vəziyyət necədir?***

– "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilib, dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanları artırılıb. Artıq muxtar respublika sakinləri ödəniş kartları vasitəsilə vergi və rüsumları, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, gömrük rüsumlarını, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsini elektron ödəniş formasında apara bilirlər.

Elektron ödəniş alətlərinin və nağdsız hesablaşmaların həcminin artırılması məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən mütəmadi olaraq maarifləndirmə işləri aparılır. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılmış POS-terminallardan müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılmasının monitorinqi keçirilib, nağdsız əməliyyat aparmayan sahibkarlarla xüsusi maarifləndirici görüşlər təşkil edilib, müvafiq tövsiyələr verilib.

Eyni zamanda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının birgə iştirakı ilə muxtar respublikanın təhsil müəssisələrində, bir sıra dövlət orqanlarında çalışan ödəniş kartı istifadəçiləri ilə görüşlər keçirilib, onlara ödəniş kartlarından istifadənin üstünlükləri barədə məlumatlar verilib, nağdsız ödənişlərin iqtisadiyyatın inkişafında nə dərəcədə mühüm rol oynadığı bildirilib. Görüşlər zamanı nağdsız ödəniş alətlərindən istifadə vərdişlərinin təbliği məqsədilə videoçarxlar nümayiş etdirilib, bu istiqamətdə əsaslı rol oynayan internet resursları haqqında məlumatlar verilib və internet üzərindən ödənişlərin həyata keçirilməsi əyani şəkildə diqqətə çatdırılıb. Bunlarla yanaşı, ödəniş alətlərinin üstünlükləri ilə bağlı təbliğat materialları, bukletlər dərc edilib ödəniş kartı istifadəçilərinə paylanılıb.

Vətəndaşlar tərəfindən kommunal xərclərin ödəniş kartları vasitəsilə ödənilməsinin həyata keçirilməsi məqsədilə 2014-cü il ərzində 619 ədəd, o cümlədən "Naxçıvanqaz" İstehsalat Birliyində 39 ədəd, "Naxçıvanpoçt" MMC-də 105 ədəd, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi qurumlarında 21 ədəd POS-terminal quraşdırılıb.

Ötən il POS-terminallar və digər ödəniş vasitələrilə aparılan nağdsız əməliyyatların həcmi 12 milyon 513 min manat təşkil edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən vətəndaşların kommunal ödənişlərini POS-terminallarla yanaşı, ödəniş kartlarından istifadə etməklə internet üzərindən həyata keçirmələri də təmin olunub.

Ödəniş sistemlərinin inkişaf etdirilməsi, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılıb, 1 yanvar 2015-ci il tarixə onların sayı 867 ədəd olmaqla keçən ilin müvafiq dövrü ilə müqayisədə 619 ədəd artıb.

Bu tədbirlərin həyata keçirilməsi nağd pul dövriyyəsinin məhdudlaşdırılmasına, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə təsir göstərən əsas amillərdən biridir.

Bundan başqa, vətəndaşlara müasir bank xidməti göstərilməsi məqsədilə 92 ədəd bankomatla xidmət göstərilib, o cümlədən 53-ü Naxçıvan şəhərində, 39-u isə rayon mərkəzlərində və böyük kənd yaşayış məntəqələrində olmaqla muxtar respublika əhalisi tamamilə bu xidmətlə əhatə olunub. Əlavə bankomatların gətirilərək böyük kənd yaşayış məntəqələrində qurulması istiqamətində işlər davam etdirilir.

***– Səbuhi müəllim, dediyiniz faktlardan belə məlum oldu ki, nağdsız ödənişlərin həcmi xeyli artıb. Bu, onu göstərir ki, ödəniş kartlarının sayında da artım var.***

– Əlbəttə. Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartlarının sayı 2014-cü ilin əvvəllərində 183 min 72 ədəd təşkil edirdisə, hazırda elektron ödəniş kartlarının ümumi sayı 202 min 928 ədədə çatıb və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 min 856 ədəd artıb. Vətəndaşların, xüsusilə kənd yerlərində əməkhaqqı, pensiya və müavinətlərin tamamilə ödəniş kartları vasitəsilə ödənilməsinin təşkili daim diqqət mərkəzində saxlanılır.

Nağdsız hesablaşmalara keçidlə əlaqədar olaraq əməkhaqqı, pensiya və digər sosial ödəmələrin ödəniş kartları ilə verilməsi ilə yanaşı, büdcə və büdcədənkənar xərclərin aparılmasında 100 faiz hüquqi şəxslərə verilən korporativ kartlardan istifadə olunur.

***– Ötən il muxtar respublikada yeni bank və ya bank filialı yaradılıbmı?***

– 2014-cü il ərzində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin "Naxçıvan", "Şərur" və "Culfa" rayon filialları yaradılıb. Hal-hazırda həmin filiallar vasitəsilə vətəndaşlara yüksəkkeyfiyyətli bank xidməti göstərilir. Yeni yaradılan filiallar vasitəsilə kənd təsərrüfatı və kiçik biznesin kreditləşməsinə 4 milyon 212 min manat kredit verilib.

***– Ötən illər ərzində açıqladığınız məlumatlar göstərir ki, vətəndaşların banklarda olan əmanətlərinin həcmi ilbəil artır. Bu gün muxtar respublikada fəaliyyət göstərən banklarda vətəndaşların nə qədər əmanəti var?***

– Muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 772 min manat, o cümlədən xarici valyuta ilə 1 milyon 740 min manat təşkil edir. Bu da banklara olan inamın nəticəsidir. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 701 min manat artıb. Banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq, 4 faizdən 18 faizədək illik faiz ödənilir.

***– Bank işçilərinin peşə hazırlığının artırılması üçün tədbirlər həyata keçirilirmi?***

– Peşəkar kadr olmadan işlərin düzgün qurulması, nailiyyətlər əldə edilməsi mümkün deyil. Ona görə də bank işçilərinin peşəkarlığının artırılması istiqamətində davamlı tədbirlər görülür. Ötən il bank işçilərinin peşə hazırlığının artırılması diqqət mərkəzində saxlanılıb, müvafiq seminar və treninqlər keçirilib. Azərbaycan Bank Tədris Mərkəzinin ekspertlərinin iştirakı ilə "Kənd təsərrüfatının kreditləşdirilməsi" mövzusunda kurs keçilib və kurs iştirakçılarına müvafiq sertifikatlar verilib.

***– Səbuhi müəllim, 2014-cü ili uğurla başa vuran bank qurumları bu il diqqəti daha çox hansı sahələrə yönəldəcək?***

– Bu il elektron ödəniş məkanının formalaşdırılması, nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, bank infrastrukturunun inkişafı, nağdsız hesablaşmaların miqyasının artırılması, yeni bank xidmətlərinin yaradılması, bank resurslarının iqtisadiyyatın real sektoruna, xüsusilə kənd təsərrüfatı və sənayenin inkişafına yönəldilməsi prioritet sahə kimi nəzarətdə saxlanılacaq.

***-Müsahibə üçün sağ olun.***

**Tural SƏFƏROV**

# Elektron xidmətlərin tətbiqi ilə əlaqədar maarifləndirici tədbir

*Kəngərli Rayon İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun təşkilatçılığı ilə Kəngərli rayonunda "Sığorta-pensiya sisteminin mahiyyəti və bu sahədə elektron xidmətlərin tətbiqi" mövzusunda maarifləndirici tədbir keçirilib.*

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim Canbaxşıyev tədbiri açaraq sığorta-pensiya sistemində informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Gəlirlər şöbəsinin müdiri Yaşar Məmmədov, Pensiya şöbəsinin müdiri Vaqif Rəsulov və Fərdi uçotun təşkili şöbəsinin müdiri İsmayıl Həsənov çıxış edərək sığorta-pensiya sisteminin mahiyyəti, məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sistemində, eləcə də sığorta-pensiya sistemində fərdi uçotun təşkili, əmək pensiyalarının təyinatı və ödənişi sahələrində elektron xidmətlərin tətbiqindən danışıblar.

Qeyd olunub ki, son illər ərzində sosial sığorta sahəsinin sürətli inkişafı bu sahədə elektron xidmətlərin tətbiqini zəruri edib. Fond informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə vətəndaşlara və təşkilatlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Bu tədbirlərə sığortaolunanların fərdi hesabları üzrə ödənilmiş sığorta haqları barədə məlumat bazasının yaradılması, məcburi dövlət sosial sığorta haqlarının toplanması və fərdi uçotun qurulması, pensiyaların məbləğinin hesablanması, onların ödənişi və ödənişinə nəzarətin avtomatlaşdırılması daxildir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən 20 növ elektron xidmətin göstərilməsi nəzərdə tutulub. Bu elektron xidmətlərdən 10-u aktivdir. Buraya məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi, pensiya kalkulyatoru, sığortaolunanın onlayn uçota alınması, sığortaolunanlara məlumatların verilməsi, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin, hamiləliyə və doğuşa, uşağın anadan olmasına, uşağın üç yaşına çatanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəllərinin təqdim olunması, pensiyaçıya məlumatın verilməsi, pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün müraciətlərin və sənədlərin qəbulu elektron xidmətlər daxildir.

Bildirilib ki, fond tərəfindən 2014-cü ilin noyabr ayından avtomatlaşdırılmış pensiya təyinatı sistemi istifadəyə verilib.

Çıxışlarda bildirilib ki, yaxın gələcəkdə sığorta-pensiya sistemində nəzərdə tutulan digər elektron xidmətlərin də əhaliyə təqdim olunması planlaşdırılır.

Kəngərli rayonunda sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi ilə bağlı görülən işlər barədə fondun Kəngərli Rayon Şöbəsinin müdiri Altun Seyidov tədbir iştirakçılarına məlumat verib.

Sonda iştirakçılara elektron xidmətlərin tətbiqi və istifadə qaydaları ilə əlaqədar slayd göstərilib, həmçinin onları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvanda “Bakı-2015” Avropa Oyunlarının tanıtım mərasimləri keçirilir



Yanvarın 26-da Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində “Bakı-2015” Avropa Oyunları Əməliyyat Komitəsinin təşkilatçılığı ilə ilk dəfə ölkəmizdə keçiriləcək Birinci Avropa Oyunlarının tanıtım kampaniyası çərçivəsində yeniyetmə və gənclərlə görüş olub.

Tədbirdə Naxçıvan şəhərinin ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər.

Tədbirin məqsədi məktəblilərə cari ilin iyun ayında ilk dəfə olaraq ölkəmizdə təşkil olunacaq Avropa Oyunları barədə məlumat vermək və onları idmana cəlb etməkdən ibarətdir.

Tədbirdə əvvəlcə Avropa Oyunlarına həsr edilmiş videoçarx nümayiş etdirilib.

Sonra tədbirin aparıcısı Lalə Eyvazova vurğulayıb ki, ilk Avropa Oyunlarının Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq miqyasda qazandığı nüfuz ilə birbaşa bağlıdır. Siyasi, iqtisadi və mədəni əhəmiyyəti ilə diqqəti cəlb edən bu hadisə həm də Azərbaycanın son illərdə idman sahəsində qazandığı uğurlara dəstək xarakteri daşıyır. Təsadüfi deyil ki, 2002-ci ildən 36 nüfuzlu beynəlxalq yarışa ev sahibliyi edən Azərbaycanda sonuncu belə mötəbər tədbir 2014-cü ildə keçirilən bədii gimnastika üzrə Avropa çempionatı olub. Müstəqilliyinin bərpasından keçən 23 il ərzində 200-dən artıq atletlə Yay və Qış Olimpiya Oyunlarında təmsil olunan ölkəmiz bu günədək beynəlxalq arenalarda 2000-ə qədər medal qazanıb.

Aparıcı Avropa Oyunlarında iştirak edəcək ölkələr, istifadə ediləcək idman obyektləri və yarışa daxil edilən idman növləri barədə də ətraflı məlumat verib. Qeyd edilib ki, iyunun 12-dən 28-dək davam edəcək “Bakı-2015” ilk Avropa Oyunları bu qitə üçün çoxsaylı idman növləri üzrə baş tutacaq çox maraqlı və innovativ yarışlar olacaq. Ümumilikdə, 20 idman növü üzrə keçiriləcək bu mötəbər yarışların proqramına daxil edilən idman növlərindən 16-sı olimpiya, dördü qeyri-olimpiya idman növü olacaq. Avropa Oyunlarında Avropanın müxtəlif ölkələrindən 6000-dən çox idmançının 17 yarış günü müddətində öz ölkələrini təmsil edəcəyi gözlənilir.

Tədbirin ən maraqlı anı isə Avropa Oyunlarına daxil edilən idman növləri ilə bağlı keçirilən sorğu olub. Məktəblilər sorğuda fəallıq nümayiş etdiriblər. Sorğunun nəticəsində məlum olub ki, boks və voleybol ən çox sevilən idman növləri kimi Naxçıvanda yeniyetmə və gənclər arasında populyarlıq qazanıb.

Sonda “Bakı-2015” Avropa Oyunlarının Əməliyyat Komitəsinin üzvləri tərəfindən məktəblilərə üzərində Birinci Avropa Oyunlarının loqo və simvolları əks olunan çanta və papaqlar hədiyyə edilib.

Qeyd edək ki, analoji tədbir həmin gün Kəngərli rayonunda da keçirilib.

Naxçıvana gələn “Bakı-2015” Avropa Oyunları Əməliyyat Komitəsinin üzvləri həftə ərzində muxtar respublikanın şəhər və rayonlarında tanıtım kampaniyasını davam etdirəcəklər.

“İlk dəfə Bakıda keçiriləcək Birinci Avropa Oyunlarının tanıtım kampaniyası artıq Azərbaycanın bütün bölgələrini əhatə edib. Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında da “Bakı-2015” ilk Avropa Oyunları barədə ümumi məlumatları gənclərimizə çatdırırıq. Biz muxtar respublikada gənclərin idmana və idman oyunlarına böyük maraq göstərdiklərinin bir daha şahidi olduq”. Bu sözləri “Bakı-2015” Avropa Oyunları Əməliyyat Komitəsinin korporativ direktoru Elçin Səfərov qəzetimizə müsahibəsində deyib.

Elçin Səfərov Birinci Avropa Oyunlarının tanıtım kampaniyasının təşkili ilə bağlı muxtar respublikada aparılan işlər barədə danışaraq qeyd edib ki, beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Naxçıvanda bu tədbir ilə əlaqədar lazımi təşkilati işlər görülüb.

“Məqsədimiz ölkəmizin tarixində ilk dəfə baş verən bu əhəmiyyətli hadisəni yaddaşlara həkk etmək və bütün dünyanın diqqətini Azərbaycana cəlb etməkdir. Artıq 39 rayonda belə tanıtım kampaniyası keçirilib. Bu həftə ərzində isə Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında analoji tədbirlər keçiriləcəkdir”, – deyən E.Səfərov qeyd edib ki, Birinci Avropa Oyunları ilə bağlı aparılan tanıtım kampaniyası nəticəsində insanlar daha geniş məlumatlar əldə etmək imkanı qazanırlar.

***Məşhur Amerika filosofu Maykl Novak yazır: “İdmana əhəmiyyət verməmək olduqca vacib milli dəyərlərdən birini itirməkdir”. Doğrudan da, idman ümummilli dəyərdir. Hər bir dövlətin məqsədlərindən biri mövcud idman ənənəsini qoruyub inkişaf etdirməkdir. Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Gənc müstəqil bir dövlətin tez bir zamanda beynəlxalq idman arenalarında tanınmasında, bayrağının dalğalanmasında bu inkişafın payı böyükdür. Ölkənin bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bu siyasət uğurla həyata keçirilir və qazanılan nailiyyətlər bir daha onu göstərir ki, blokada vəziyyətində yaşamasına baxmayaraq, sərhəd tanımayan idmançılarımız gündən-günə püxtələşməkdə davam edirlər.***

## Naxçıvanın boks tarixində ilk

### *Boksçumuz “Bakı-2015” Avropa Oyunlarına vəsiqə qazanıb*

***Ölkənin ən güclü dəri əlcək sahibi: Tayfur Əliyev***

Naxçıvan Muxtar Respublikasında idmanın bütün sahələrinin inkişafı, təşəkkül tapması son illər bu sahəyə gənclərin axınını da sürətləndirib. Muxtar respublika rəhbərinin qayğısı sayəsində idmançılarımız üçün müasir standartlara cavab verən təlim-məşq qurğularının tikilib istifadəyə verilməsi, Naxçıvanda yüksəksəviyyəli beynəlxalq yarışların və turnirlərin keçirilməsi, idmançılarımızın dünya arenasında qazandıqları qələbələr idmanın muxtar respublikada uğurlu inkişafından xəbər verir. Bu idman növlərindən biri də boksdur. Naxçıvanın qədim boks ənənələri olub və bu gün bu ənənə gənc dəri əlcək sahibləri tərəfindən layiqincə davam etdirilir. Yeniyetmə və gənc boksçularımız dünya və Avropa rinqlərində, beynəlxalq turnirlərdə, yarışlarda qazandıqları uğurlarla Naxçıvan idmanının, eləcə də boksunun sürətli inkişaf yolu keçdiyini göstəriblər. Təbii ki, muxtar respublika boksunun dünya idman ailəsinə inteqrasiyasında bu sahənin maddi-texniki bazasının gücləndirilməsi də mühüm rol oynayır. Son illər yaradılan müasir idman infrastrukturu, eyni zamanda bu sahəyə göstərilən diqqət dəri əlcək sahiblərimizi ruhlandırıb.

2015-ci ilin ilk günlərində boksçumuz Tayfur Əliyevin ölkə miqyasında böyük uğur qazanması Azərbaycanda ajiotaj yaradıb. Son boks üzrə Azərbaycan çempionatı Şağan Olimpiya-İdman Kompleksində keçirilib və idman həvəskarları yazılan yeni tarixə şahidlik ediblər. Ölkənin 200-dən artıq ən mükəmməl döyüşçüsünün mübarizə apardığı kişilər arasında Azərbaycan çempionatında boksçumuz Tayfur Əliyev 56 kiloqram çəki dərəcəsində rinqə çıxıb.



Qeyd edək ki, Tayfurun hələ 17 yaşı var və o, yeniyetmə boksçu hesab edilir. Karyerası ərzində ilk dəfə kişilər arasında ölkə birinciliyində mübarizə aparmaq isə ona bu yaşında qismət oldu. Yarışın əsas məqsədi milli komandanın tərkib hissəsini və bu il Bakıda ilk dəfə keçiriləcək Avropa Oyunlarında iştirak edəcək idmançıları müəyyənləşdirmək idi. Təbii ki, sonuncu nüans yarışın daha çətin keçəcəyindən xəbər verirdi. Boksçumuz Tayfur Əliyev həlledici döyüşdə iştirak etmək üçün 4 rəqibini məğlub edib. Finalda isə onu daha çətin rəqib – uzun illər boks üzrə Azərbaycan yığmasının kapitanı olan Rəhim Nəcəfovla döyüş gözləyirdi. Həlledici qarşılaşmada rəqibinə aman verməyən dəri əlcək sahibimiz hər üç raundda qalib gələrək ilk dəfə kişilər arasında ölkə çempionu adını qazanıb. Qızıl medalı boynuna asan Tayfur Əliyev həm də çempionatın ən texnikalı boksçusu üçün təsis edilən kuboku başı üzərinə qaldırıb. Bu qələbə ona eyni zamanda 12-28 iyun tarixlərində keçiriləcək “Bakı-2015” Avropa Oyunlarına vəsiqə qazandırıb.

***Avropa Oyunlarının ilk naxçıvanlı idmançısı***

Artıq Azərbaycan boks tarixində bir ilkə imza atan, 15 yaşında Azərbaycan Respublikasının idman ustası adını qazanan və bütün ölkəni öz döyüş üslubu ilə heyran qoyan Tayfur Əliyevin indi bir məqsədi var: “Bakı-2015” Avropa Oyunlarında bu uğuru təkrarlamaq.

– Artıq 10 ildən çoxdur ki, boksla məşğul oluram. Son olaraq qazandığım uğuru hər zaman arzu etmişəm. Çünki hələ karyerama başlamamışdan əvvəl qarşıma bir məqsəd qoymuşdum: öz çəkimdə Azərbaycanın ən yaxşı boksçusu olmaq. Buna nail olmaq üçünsə daim çalışmalısan. Güman edirəm ki, uzun illərdir, çalışmağımın bəhrəsini yavaş-yavaş görürəm.

***– Səhv etmirəmsə, bu çempionluq sənin karyerandа ilk deyil...***

– Bəli. Bundan öncə mən yeniyetmə və gənclər arasında 6 dəfə Azərbaycan çempionu olmuşam. Uzun müddətdir, kişilər arasında keçiriləcək ölkə çempionatında çıxış etmək üçün hazırlaşırdım. Karyeram ərzində ilk dəfə çıxış etdiyim turnirin qalibi adını qazanmaq məni çox sevindirdi. Bundan əlavə, 2011-ci ildə Qroznıda keçirilən boks üzrə yeniyetmələr arasında Avropa çempionu oldum. 2013-cü ildə isə gənclər arasında Anapada keçirilən Avropa birinciliyində gümüş medal qazandım. Mənim üçün ən dəyərli kuboku isə 2013-cü ildə əldə etdim. Analoji olaraq hər il keçirilən “Prezident Kuboku”nda 2012-ci ildə qalib olsam da, 2013-cü ildə turnirin ən yaxşı boksçusu üçün təsis edilən kubokun sahibi oldum.

***– Artıq “Bakı-2015” Avropa Oyunlarına vəsiqəni təmin etmisən. Qarşıdakı aylarda səni hansı turnirlərdə çıxış gözləyir?***

– Gələn ay Macarıstanda kişilər arasında beynəlxalq turnir keçiriləcək. Həmçinin Rusiyanın Moskva şəhərində daha bir beynəlxalq turnirdə çıxışımız gözlənilir. Bununla yanaşı, Avropa Oyunlarından öncə millinin düşərgəsində təlim-məşq toplanışında çıxış edəcəyəm.

***– Naxçıvan idman tarixində bir ilkə imza atdın və Avropa Oyunlarında iştirak etmək hüququ qazandın. Bu barədə nə deyərdin?***

– İlk olaraq, idmana və idmançılara göstərdiyi qayğıya, yaratdığı şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm. Həmçinin Boks Federasiyasına, Gənclər və İdman Nazirliyinə daim mənə dəstək olduqları üçün minnətdaram. Hər kəs mənə inandı və etimadı doğrultduğum üçün xoşbəxtəm.

**Ceyhun MƏMMƏDOV**

## “Qayğı ilə ümid yarat” adlı kitabçanın və video təlimatın təqdimat mərasimi

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində “Özünə qulluq göstərə bilməyən sağlamlıq imkanları məhdud şəxslərə gigiyenik xidmət barədə təlimat” kitabçasının və onun Naxçıvan televiziyası ilə birlikdə hazırlanmış video versiyasının təqdimat mərasimi keçirilib.***

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsinin müdiri Elçin Novruzov çıxış edərək bildirib ki, məhdud fiziki imkanlı şəxslər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub. Muxtar respublikamızda dinamik inkişaf məhdud fiziki imkanlı şəxslərin tibbi və sosial reabilitasiyası, habelə onların cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlərin intensiv xarakter almasına əsaslı imkanlar yaradıb. Şöbə müdirinin sözlərinə görə, son illər məhdud fiziki imkanlı şəxslərə göstərilən xidmətlərin həcmi artıb. Belə ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən uşaqların təhsil almaları üçün Distant Tədris Mərkəzi istifadəyə verilib, görmə qabiliyyəti məhdud şəxslər üçün hər ay “Könül işığı” adlı brayl jurnalının nəşri təmin edilib, məhdud fiziki imkanlı şəxslərə göstərilən audio və elektron kitabxana xidmətinin həcmi artırılaraq yeni bölmələr yaradılıb.

Naxçıvan Əlillərin Bərpa Mərkəzinin həkim-nevropatoloqu Rəfayil Orucov çıxışında qeyd edib ki, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası məqsədilə Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılıb, eyni zamanda serebral iflicli, autizm və daun sindromlu, periferik sinir xəstəliyi olan uşaqların sosial inteqrasiyasına nail olmaq məqsədilə valideynlərlə maarifləndirici görüşlər keçirilib.

Bildirilib ki, “Qayğı ilə ümid yarat” adlı kitabçanın nəşri və onun video versiyasının hazırlanması özünə qulluq göstərə bilməyən, başqasının yardımına ehtiyac duyan sağlamlıq imkanları məhdud şəxslərə qulluq göstərilməsi baxımından olduqca əhəmiyyətlidir.

Özünə qulluq göstərə bilməyən sağlamlıq imkanları məhdud şəxslərə gigiyenik xidmət barədə təlimatın hazırlanmasında əsas məqsəd bu kateqoriyadan olan şəxslərə göstərilən gigiyenik xidmətin xüsusiyyətləri haqqında məlumatların verilməsidir.

Qeyd olunub ki, bu təlimatın audio versiyasının hazırlanıb audiokitabxana xidmətinin kataloquna daxil edilməsi görmə qabiliyyəti məhdud şəxslərə xidmət göstərən şəxslər üçün də faydalı olacaqdır. İlk dəfə olaraq hazırlanan bu təlimat sağlamlıq imkanları məhdud şəxslərə xidmət göstərənlərə pulsuz olaraq çatdırılacaq.

Sonra tədbirdə özünə qulluq edə bilməyən sağlamlıq imkanları məhdud şəxslərə xidmət göstərən 20 şəxsə “Qayğı ilə ümid yarat” adlı kitabça və videodisk təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***


***İtmişdir***

Naxçıvan şəhəri, Ş.İ.Xətai küçəsi, ev 27-də yaşayan Hüseynov Hüseyn Namaz oğlunun adına olan evin 383 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi, bina 125, mənzil 37-də yaşayan Cəfərov Səfər Zahid oğlunun adına olan 7771 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, A.Cəlilov küçəsi, bina 1, mənzil 32-də yaşayan Mahmudova Sabirə Əli qızının adına olan 9234 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 65